## Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası yanında komitələrin və komissiyanın 2023-cü il üzrə fəaliyyətlərinin yekununa dair hesabat barədə Arayış

Auditorlar Palatasının Şurası yanında fəaliyyət göstərən aşağıdakı komitələrin və komissiyanın tərkibi Palata Şurasının 2023-cü il 13 aprel tarixli 355/7 nömrəli qərarı ilə təsdiq edilmişdir:

1. Beynəlxalq Audit Standartları, auditor fəaliyyətinin metodoloji və hüquqi təminatı üzrə komitə (sədr, 2 müavin və 7 üzv);
2. Keyfiyyətə nəzarət və keyfiyyətin idarəedilməsi üzrə komitə (sədr, müavin və 5 üzv);
3. Haqsız rəqabətə qarşı mübarizə üzrə komitə (sədr, müavin və 9 üzv);
4. Beynəlxalq əlaqələr və xarici təşkilatlarla iş üzrə komitə (sədr, müavin və 5 üzv);
5. Auditorların ixtisasartırması və peşə təhsili üzrə komitə (sədr, müavin və 8 üzv);
6. Etika, mübahisələr və intizam komissiyası (sədr, müavin və 4 üzv);

Auditorlar Palatasının Şurası yanında fəaliyyət göstərən komitələrin və komissiyanın tərkibi Auditorlar Palatasının əməkdaşlarından, Auditorlar Palatasının üzvləri olan auditor təşkilatlarının nümayəndələrindən və sərbəst auditorlardan ibarətdir.

Həmin komitələrin və komissiyanın əsasnamələri və illik iş planları Palatanın Şurası tərəfindən təsdiq olunur və onlar hər ilin sonunda Auditorlar Palatasına fəaliyyətləri barədə illik hesabat təqdim edirlər.

Komitələr və komissiya fəaliyyətlərində “Auditor xidməti haqqında” Azərbaycan Respublikasının Qanununu, “Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında” Əsasnaməni, Azərbaycan Respublikasının qüvvədə olan digər qanunvericilik aktlarını, Palata Şurasının qərarlarını, Palata rəhbərliyinin əmr və sərəncamlarını və öz Əsasnamələrini rəhbər tutur.

### Beynəlxalq Audit Standartları, auditor fəaliyyətinin metodoloji və hüquqi təminatı üzrə komitə

Komitə Beynəlxalq Audit Standartlarının (BAS) auditor fəaliyyətinin metodoloji və hüquqi təminatının Azərbaycan Respublikasında tətbiqi vəziyyətini təhlil edir və icmallaşdırır, Beynəlxalq Audit Standartlarının (BAS) tədrisi üzrə tədbirlərin təşkilində və keçirilməsində iştirak edir, Beynəlxalq Audit Standartlarının (BAS) tətbiqi üzrə xarici təcrübənin öyrənir, ümumiləşdirir və auditorların diqqətinə çatdırır və Beynəlxalq Mühasiblər Federasiyası tərəfindən mövcud BAS-da edilmiş dəyişikliklər və yeni qəbul olunmuş standartlar haqqında məlumatların auditorların diqqətinə çatdırır.

Komitənin sədri Namiq Abbaslı tərəfindən 2023-cü ilin 29 dekabr tarixində təqdim edilmiş hesabatda komitənin 2023-cü il üzrə iş planında nəzərdə tutulmuş 10 işin icrası qeyd edilmişdir.

Komitənin hesabatında komitənin Əsasnaməsinə uyğun olaraq üzvlərin iştirakı ilə ən azı ildə iki dəfə iclasların keçirilməsi barədə heç bir məlumat qeyd edilməmişdir.

## Keyfiyyətə nəzarət və keyfiyyətin idarəedilməsi üzrə komitə

Komitə müvafiq şöbə ilə birlikdə auditorların apardıqları auditor xidmətinin keyfiyyətinə kənar nəzarəti, keyfiyyətə kənar nəzarət üzrə bildirişlərin göndərilməsini, nəzarət üçün tələb olunan sənədlərin qəbulunu, emalını, sistemləşdirilməsini və keyfiyyətə kənar nəzarətləbağlı digər təşkilatı məsələlərin icrasını təmin edir. Hər bir auditor üzrə keyfiyyətə kənar nəzarəti təyin edir, auditor xidmətinin keyfiyyətinə kənar nəzarətin nəticələrini qiymətləndirir və auditorların göstərdiyi auditor xidmətinin keyfiyyətinin monitorinqinin aparılması üçün illik iş planının hazırlanması və təsdiq edilməsi üçün Şuraya təqdim edir.

Komitənin sədri Elçin Əliyevin təqdim etməli olduğu komitənin 2023-cü il üzrə iş fəaliyyətinin yekununa dair hesabatı 2024-cü il üzrə iş planının 4.1-ci “2023-cü ildə auditor təşkilatlarının və sərbəst auditorların apardıqları auditlərin keyfiyyətinə kənar nəzarətin vəziyyətinə dair icmal-təhlilin hazırlanması” bəndinin icrası ilə eyni olduğuna görə komitənin fəaliyyətini əks etdirən və 2024-cü ilin 31 yanvar tarixində təqdim olunan icmal-təhlilin nəzərə alınması xahiş edilmişdir.

Auditor təşkilatlarının və sərbəst auditorların apardıqları auditlərin keyfiyyətinin Beynəlxalq Audit Standartlarının tələblərinə uyğunluğunun keyfiyyətə kənar nəzarətlə aparılmış monitorinqlərin nəticəsi üzrə komitəyə 51 hesabat, o cümlədən 2022-ci ildən qalan 16 hesabat, 2023-cü ildə isə 35 hesabat təqdim edilmişdir. Həmin hesabatlardan 8-i 01 fevral, 8-i 15 fevral, 5-i 04 avqust, 6-sı 05 sentyabr, 7-si 24 oktyabr, 4-ü 8 dekabr 2023-cü il tarixlərində komitənin iclaslarında, 7-si 01 dekabr, 6-sı 18 dekabr 2023-cü il tarixlərində isə şöbənin iclaslarında müzakirə olunaraq müvafiq qərarlar qəbul edilmişdir.

## Haqsız rəqabətə qarşı mübarizə üzrə komitə

Komitə sərbəst auditorlar və auditor təşkilatları arasında sağlam rəqabət mühiti yaratmaq və onlar tərəfindən rəqabəti məhdudlaşdıran müqavilələr bağlanmasının qarşısının alınması istiqamətində zəruri tədbirlər görür, Haqsız rəqabət üzrə beynəlxalq təcrübəni öyrənərək təklif və tövsiyələr hazırlayır və Palatanın Şurasına təqdim edir, Palatanın Şurası tərəfindən təyin edilməsi şərti ilə peşə mənsublarının / üzvlərinin haqsız rəqabət və reklam prinsipləri ilə əlaqəli peşə qaydalarının pozulub-pozulmadığını yoxlayır və araşdırır və peşə mənsublarının / üzvlərinin haqsız rəqabət və ya reklam prinsip və qaydalarına zidd olan davranış və tətbiqləri aşkar edildikdə, bundan məsul olanlar üçün müvafiq hesab edilən sanksiya təklifi ilə birlikdə vəziyyəti Palatanın Şurasına təqdim edir.

Komitənin sədri Qoşqar Əhmədov tərəfindən 2024-cü ilin 23 yanvar tarixində təqdim edilmiş hesabatda komitənin 2023-cü il üzrə iş planında nəzərdə tutulmuş 16 işdən 14-ü icra edilmiş, 2-ü isə icra edilməmişdir.

Komitənin hesabatında komitənin Əsasnaməsinə uyğun olaraq üzvlərin iştirakı ilə ən azı rübdə bir dəfə iclasların keçirilməsi barədə heç bir məlumat qeyd edilməmişdir.

## Beynəlxalq əlaqələr və xarici təşkilatlarla iş üzrə komitə

Komitə peşəkar auditor təşkilatlarının fəaliyyətinin birbaşa profili üzrə, eləcə də əlaqədar beynəlxalq peşəkar təşkilatların profili üzrə beynəlxalq cəmiyyətə inteqrasiya məqsədi ilə beynəlxalq təşkilatlarla qarşılıqlı əlaqə yaradır, Beynəlxalq Mühasiblər Federasiyasının (IFAC), Kiçik və orta müəssisələr üçün Avropa Mühasiblər və Auditorlar Federasiyasının

(EFAA) üzvlük öhdəlikləri çərçivəsində Palatanın üzərinə düşən işlərin yerinə yetirilməsi və Palatanın fəaliyyətinin bu üzvlük öhdəliklərinə uyğunlaşdırılması üzrə tədbirləri, beynəlxalq peşəkar qurumların və xarici təşkilatların iştirakı ilə görüş və tədbirlərin təşkilini həyata keçirir.

Komitənin sədri Fəqan Qarayev tərəfindən 2024-cü ilin 31 yanvar tarixində təqdim edilmiş hesabatda komitənin 2023-cü il üzrə iş planında nəzərdə tutulmuş 8 işin icrası qeyd edilmişdir.

Komitənin hesabatında komitənin Əsasnaməsinə uyğun olaraq üzvlərin iştirakı ilə ən azı rübdə bir dəfə iclasların keçirilməsi barədə heç bir məlumat qeyd edilməmişdir

**Auditorların ixtisasartırılması və peşə təhsili üzrə komitə**

Komitə auditorların ixtisas artırılması kurslarının tədris proqramının və qrafikinin, peşə təhsili proqramlarının layihələrini hazırlayır və keçirilməsini təşkil edir, auditorların ixtisasının artırılması və peşə təhsili sahəsində müvafiq ali təhsil müəssisələri ilə birgə tədbirlər təşkil edir və tədrisin təşkilində qabaqcıl yerli və beynəlxalq təcrübənin öyənilməsini və tətbiqini təmin edir.

Komitənin sədri Nəcəf Talıbov və sədr müavini Elmira Behbudova tərəfindən 2024-cü ilin 18 yanvar tarixində təqdim edilmiş hesabatda Auditorlar Palatasının 2023-cü il üzrə iş planının 5.2-ci «Auditorların ixtisasartırma kurslarının keçirilməsi», 5.3-cü «Auditor adı almaq üçün imtahanların təşkil edilməsi», 5.5-ci «Təcrübəli auditorlar tərəfindən ustad dərslərinin (master klass) təşkil edilməsi», 5.7-ci «Auditor təşkilatlarının assistent və mütəxəssisləri üçün ixtisasartırma kurslarının keçirilməsi», 5.11-ci «Əlaqəli auditor xidmətləri üzrə ixtisasartırma kurslarının təşkil edilməsi» 5.13-cü «Şirkətdaxili keyfiyyətə nəzarət üzrə kadr hazırlığının təşkili» bəndlərinin icrası ilə əlaqədar 13 iş barədə məlumatlar geniş əks etdirilmişdir.

Komitənin hesabatında komitənin Əsasnaməsinə uyğun olaraq üzvlərin iştirakı ilə ən azı rübdə bir dəfə iclasların keçirilməsi barədə heç bir məlumat qeyd edilməmişdir.

**Etika, mübahisələr və intizam komissiyası**

Komissiya auditorların apardıqları auditor xidməti zamanı etika və intizam məsələlərinə riyayət edilməsinin vəziyyətini mövcud normalara uyğun təşkil edir, audtorlara etika, mübahisələr və intizam qaydalarına əməl etmələri barəsində bildirişlərin göndərilməsini və bu işə nəzarət üçün tələb olunan sənədlərin qəbulunu, işə nəzarətlə bağlı digər təşkilatı məsələlərin icrasını təmin edir və haqsız rəqabətə qarşı mübarizə Komitəsi (şöbə) tərəfindən və ya şikayət əsasında "Auditor xidməti sahəsində haqsız rəqabət və reklam qadağası haqqında Əsasnamə"nin müddəalarına ziddiyyət müəyyən olunarsa, Komissiya tərəfindən intizam təhqiqatı başladır.

Komissiyanın sədri Kamil Hüseynov tərəfindən 2024-cü ilin 9 yanvar tarixində təqdim edilmiş hesabatda komitənin Əsasnaməsinə və 2023-cü il üzrə iş planına uyğun olaraq icra müddətləri və məsul icraçılar konkret göstərilməklə 8 işin icrası qeyd edilmişdir.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, Auditorlar Palatasının Şurası yanında komitələr və komissiya 2023-cü il ərzində işlərini öz Əsasnamələrində nəzərdə tutulan istiqamətlərdə təşkil etmişlər.

**Aparatın rəhbəri** **Q.Bayramov**